NDA
Söhrət"
LİYEV,
identi
01-ci il
i uzun
n ədə-
oyna-
nra da
afı na-
poezi-
ləri ilə
xoş-
zulayı-
LİYEV,
aycan
asının
zidenti
01-ci il
ə
nəyini,
nkişafı,
öhkəm
rlar və
n.
nzadə,
şair
01-ci il
üksək
aradı-
aralıda
yaşa-
nər sə-

# ABDULLA ŞAİQ — 120

# A.ŞAİQİN ROMANTİK NƏZƏRİ GÖRÜŞLƏRİ



Abdulla Şaiqin romantizminin mühüm bir tərəfi onun ədəbi tənqidi və ədəbi nəzəri görüşlərində ifadə edilmişdir.

Romantizm cərəyanının təşəkkülü ilə iyirminci əsrin əvvəllərində bizim ədəbi tənqidin tarixində özünün yanaşma əlamətləri ilə seçilən yeni bir tənqid növü meydana çıxırdı. Həmin tənqid növünün ilkin yaradıcıları əsasən romantik yazıçıların özləri idi. O yeni növ tənqid Azərbaycan ədəbi tənqid tarixində haqlı olaraq "romantik tənqid" adlandırılıbdır (Kamal Talıbzadə. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı, Maarif, 1984).

Romantik əsərə romantik tənqid gərəkdir. Bunu hamıdan qabaq romantizm sənətinin məxsusiliyi istiqamətində fəaliyyət göstərən romantik yazıçılar şəxsi təcrübələrində duyub dərk edir, onun nümunələrini yazıb ortaya çıxarırdılar.

A.Şaiqin öz romantik həmkarları M.Hadi, T.Fikrət, H.Cavid, A.Səhhət, C.Cabbarlı barədə yazdıqları bu baxımdan maraq doğurur. Həmin yazıların bəziləri ümumi məlumat xarakterlidir. Adları çəkilən yazıçıların hər birini oxuculara tanıtmaq məqsədi ilə onların tərcümeyi-halı ilə yanaşı, A.Şaiq romantik həmkarlarının yaradıcılığı üzərində ilkin olaraq romantik düşüncəli təhlillər aparıb dəyərli fikirlər söyləmişdir.

Tərcümeyi-hal məlumatlarında həmin yazıçının xasiyyətində, təbiətində özünü büruzə verən romantik hallara diqqət yetirilir.

Məhəmməd Hadinin ilkin tərcümeyi-hallarından sayıla bilən "Məhəmməd Hadi Əbdüssəlimzadə" (1924) yazısında onun təbiətinin bu kimi tərəfləri göstərilir: "Fikrətən sərbəstliyi sevən və izzəti-nəfsə malik olan Ağaməhəmməd (Hadinin əsl adı — V.O.) kimsənin müavinət və himayəsini qəbul... geniş ruhlu, geniş qəlbli, uca düşüncəli Ağaməhəmmədi təmin etmirdi. Zira ki, ta çocuqluqdan bir-birini təqib etməkdə olan böyük fəlakətlər onu sarsıtmış, onda acı düşüncə, acı mühakimə doğurmuş... dadmış olduğu acı təcrübələr intibah fikri oyatmış və əski aləmdən, əski həyatdan tamamilə bıkdırmışdı... Əskilikdən ilham almayan Hadi yeni fikirlər, yeni məsələlər qarşısında sükut edə bilmədi..." (IV.150-151).

M.Hadinin xasiyyətinin bu deyilən tərəfləri sənətdə romantik yolu tutmasına aparıb çıxarmışdı.

Özünün "Xatirələrim" əsərində A.Şaiq Hadiyə yenidən qayıtmışdır. "Məhəmməd Hadinin faciəsi" adlanan bu yazıda Hadinin həyatının "onda acı düşüncələr doğuran" qəmlərindən xəbər verilir. "Hadi mövcud ictimai quruluşla razılaşmır, onu yıxmaq, parçalamaq istəyir, yerində yeni bir həyat yaratmağa isə qüvvəsi çatmırdı. Bu zəifliyi özündə dərk etdiyindən Hadi dərin bir bədbinliyə qapılmış, şübhə və tərəddüdlərlə dolu bir həyat keçirməyə başlamışdı. Bu əhval-ruhiyyəni şair əsərlərində çox aydın göstərir" (V.235).

Romantik xarakterlərin sırasında mövcud quruluşla barışmayan xüsusi bir zümrə mövcuddur. Romantizmin məlum üsyankarlıq motivləri də daha çox mövcud quruluşla barışmazlıqdan neşət etmişdir. Hadinin təbiətində belə bir barışmazlığın müşahidə olunduğu bildirilir.

Şaiqin fikrincə Hadinin təbiətindəki bu "mövcud quruluşla razılaşmamaq" cəhəti onun əsərlərində də özünü göstərir. "Hadinin enişli-yoxuşlu ədəbi fəaliyyəti, ziddiyyətlər ilə onun keçirdiyi həyat yolu arasında bir yaxınlıq, uyğunluq var idi".

Şaiq Hadi ilə keçirdiyi günləri xatırlayır, bu xatırlamalarda Hadinin qəribəlikləri kimi seçilən cəhətlərə romantizm mövqeyindən yanaşanda bəzi mənalar aydınlaşır. Məsələn, Şaiq Hadini öz evinə dəvət edir, o isə cavabında: "Yox, qardaşım, bu gün öz səmalərimdə uçaraq günəşin ziyalarını örtən buludları parçalayıb dağıtmaq istəyirəm". Adətən romantik qəhrəmanlar bu dildə danışarlar. Hüseyn Cavid barədəki yazısında Şaiq birbaşa "romantizm məsləki" ifadəsini işlətmişdir. Cavidin Türkiyədə təhsil aldığı illərdə oradakı ədəbi mühit, türkiyəli şairlərin fəaliyyəti barədə bəhs edərkən göstərmişdi: "Vaxtilə ədəbiyyatda hakim olan hissiyyun (sentimentalizm) ədəbi məsləkini indi romantizm və realizm məsləki əvəz edirdi. Romantizm ədəbi məsləkini davam etdirən, bir çox mənzum tarixi faciələri ilə şöhrət qazanmış Əbdülhəq Hamid idi".

H.Cavidin özünün "romantizm üslubunda" əsərlər yazdığı barədə də Şaiqin ilkin müşahidələri özünü doğrultmuşdur.

A.Şaiqin öz romantik həmkarları, onların tərcümeyi-halı və elmi istiqamətli yazıları tam bir silsilə təşkil edir. M.Hadi və H.Cavid barədə yazıları ilə yanaşı oxucuları A.Səhhətlə tanış etmişdir. "A.Şaiq Sabir və Səhhətin ilk bioqraflarından biri olmuş..." (Kamal Talıbzadə, Abdulla Şaiq əsərləri beş cilddə, IV c., İzahlar və qeydlər. s.432).

Belə bioqrafiyalardan biri Şaiqin 1944-cü ildə A.Səhhətin anadan olmasının yetmiş illiyi münasibətilə yazdığı "Abbas Səhhət" portret-oçerkidir.

Bu bioqrafik yazılar bir də ona görə dəyərlidir ki, Şaiq, barəsində yazdığı həmkarlarının hər biri ilə yaxından dostluq eləyib, daimi ünsiyyətdə olduğu adamlardı. Hər bioqrafik məlumat bilavasitə şəxsi ünsiyyətdən, qarşılıqlı münasibətdən toplanan doğru-dürüst faktlardır. Hətta Şaiq xüsusi məqsəd güdürmüş kimi tərcümeyi-halı hərənin özünə yazdırırmış: "Orta və ali məktəb dərsliklərinə daxil etmək üçün Hüseyn Cavidin geniş tərcümeyi-halını öyrənmək istəyirdim. Odur ki, bir gün bizə gəlməsindən istifadə edib məsələni ona açdım. Cavabında gülə-gülə:

— Yaxşı, dur qələm, kağız gətir, mən deyim sən yaz, — deyə razılaşdı" (V.274).

Eləcə də A.Səhhət barədə yazısında oxuyuruq: "Öz dəst-xəttilə mənə

(Ardı 2-ci səh.)

Saiqim! Şairlər içində təksən,

Səndə təbiət var ipəkdən yumşaq,

Abdulla Şaiqin əsərləri Azər-